BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2015

**UOT 070**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ HÜSEYN CAVİDİN FƏALİYYƏTİ

**S.Q.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***journalisim. Bus.edu.az***

*Hüseyn Cavid Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai, mədəni hadisələrin inkişafında yaxından iştirak edib. Bu dövrdə xüsusi olaraq əsərlər yazmasa da, demokratik respublikanın ideyalarının təbliğində çox fəal olmuşdur. Yeni yaranan ədəbi birliklərin fəaliyyətə başlanmasında, dərsliklərin yazılmasında, ədəbi kommisiyaların yaranmasında yaxından iştirak edən Hüseyn Cavid nə Azərbaycan Xalq Cümhuriyyəti dövründə, nə də ondan sonra heç bir siyasi partiyanın üzvü olmamışdır.*

**Açar sözlər:** parlamentli respublika, ədəbi birlik, təbliğatçı, ədəbi komissiya, dərs vəsaiti

1918-ci ildə türk-müsəlman Şərqində ilk dəfə olaraq parlamentli respublika Azərbaycan Demokratik Respublikası quruldu. Azərbaycan Xalq Cümhuriyyətini elan etməklə özünün milli dövlətini yaratdı və onun atributlarını dünyaya tanıtmaqla özünütəsdiqə nail oldu.

Demokratik prinsiplər üzərində qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti müstəqil və azad sözün zəruriliyini anlayaraq mətbuatın həmin dövrdə daha sərbəst fəaliyyətini təmin etmək və normal inkişafına təkan vermək üçün bu sahədə bir sıra qanun və sərəncamlar qəbul edərək ilk dəfə Azərbaycan oxucusuna azad sözün, azad mətbuatın nəfəsini duydurdu.

“Haqqını sən mübarizə ilə alarsan” söyləyən dövrün görkəmli yazarı Hüseyn Cavid də azad söz, azad cəmiyyət uğrunda mübarizə apararaq “Füyuzat”dan Azərbaycan Xalq Cümhuriyyətinə doğru yüksələn və ona əsas olan milli ədəbi hərəkatın” (15, 5) ən yaxın təbliğatçısı olmuşdu.

Yaradıcılığını, amalını milli istiqlalın, türkçülüyün, turançılığın təbliğinə yönəltmiş H.Cavid Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsini bütün varlığı ilə dəstəkləmişdir. H.Cavid heç bir siyasi partiyanın üzvü olmamışdır. Əslində Hüseyn Cavid özü dəfələrlə demişdir ki: “siyasət başqa, ədəbiyyat başqa”. Elə

ona görə də, heç bir siyasi partiyanın nə üzvü olmuş, nə də onun siyasi ideyalarına rəvac vermişdir. Lakin Azərbaycan Xalq Cümhuriyyətinə ayrıca əsər yazmasa da bu dövrdə ictimai, mədəni işlərdə çox yaxından köməklik etməsi, bir daha sübut edib ki, o, Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsini ürəkdən alqışlamış və onun təbliğatcısı olmuşdur.

Bildiyimiz kimi ədibin həyatı, yaradıcılığı çox ziddiyyətli, təzadlı dövrlərə təsadüf edir: çarizmin əsarəti, İstiqlal dövrü və Azərbaycanda Sovet hakimiyyəti dövrü.

Cavidşünaslar ədibin yaradıcılığının tədqiqini əsasən dörd dövrə bölürlər: "1. Çar rusiyası dövrü. 2. Azərbaycan Cümhuriyyəti dövrü. 3. Sovet hakimiyyəti dövrü. 4. Müasir müstəqillik dövrü" (13, 5).

Onu da qeyd edək ki, bu dövrlərin hər birində tədqiqatçların, yazarların H.Cavid sənətinə, şəxsiyyətinə münasibəti özünəməxsus tərzdə özünü əks etdirir. Lakin sovet dövründə hakim partiyanın siyasi-ideoloji istiqaməti baxımından münasibətdə qərəzlilik özünü daha açıq şəkildə büruzə verir. Əqidəsinə sona kimi sadiq qalan ədib əsərlərində bolşevik hakimiyyətinə nifrətini açıq-aşkar nümayiş etdirdiyi üçün tənqidçilər onu əsasən "türkçüdür, islamçıdır" (7, 26) deyə günahlandırırdılar.

Doğrudan da, H.Cavid yaradıcılığı başdan-ayağa türkçülük, turançılıq, müstəqillik, azadlıq ideyalarının təbliğinə həsr edilib. Məhz elə buna görə Azərbaycan Xalq Cümhuriyyəti dövründə istiqlal mövzusunda mühüm əsərlər yazmadığına görə H.Cavidi qınamaq olmaz. Azərbaycan istiqlal məfkurəsinin formalaşmasında, müstəqil dövlətçilik ənənələrinin inkişafında mətbuatın apardığı mübarizəni sona kimi dəstəkləyən və onun bütün ictimai-siyasi tədbirlərində fəallıq göstərən, təpədən-dırnağa türk amallı, türk qanlı türkçü olan H.Cavid "türklərin tarixindən yazanda da Azərbaycanı, onun istiqlalını, azadlığını unutmurdu". Əslində H.Cavid o qədər dahi bir sənətkar idi ki, "yalnız Azərbaycan, türk dünyası, möhtəşəm Şərq deyil, bütün insanlıq Cavidin estetik-fəlsəfi platformasının içindədir" (10, 5).

Tədqiqatçıların böyük əksəriyyəti H.Cavidin "Azərbaycan Xalq Cümhuriyyəti dönəmi yaradıcılığının öyrənilməsinə məhz bu prizmadan baxmaq gərək" olduğunu söyləyirlər (9, 49). Çünki milli istiqlalımızın ideoloqu M.Ə.Rəsulzadə də bu fikirdə olmuş və onun adını Azərbaycanın istiqlal mücahidləri ilə bir çəkərək "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində H.Cavidin yaradıcılığına xüsusi məhəbbətlə yanaşıb. Bu haqda Rəsulzadəşünaslar yazırdı: "Cavidi müasir həyatın nəbzini tuta bilməməkdə təqsirləndirən sovet tənqidçilərindən fərqli olaraq o, müəllifin tarixi və bəşəri mövzulara müraciətini məqsədyönlü hesab edirdi. Ədib H.Cavidin "Topal Teymur" pyesini, türk tarixini səhnəyə gətirməklə "milliyyət" hissini təbliğ edən bir əsər kimi qiymətləndirirdi (14, 417).

M.Ə.Rəsulzadə bu əsərində H.Cavid yaradıcılığına sovet tənqidçilərindən fərqli mövqedə yanaşaraq obyektiv qiymətini vermiş "Topal Teymur", "Peyğəmbər", "Uçurum", "İblis", "Səyavuş" əsərlərini təhlil edərək yüksək dəyərləndirmişdir.

Mühacir ədəbiyyatşünas alim Mustafa Haqq Türkəqulu da "Azərbaycanlı türk şairi Hüseyn Cavid" adlı monoqrafiyasında Cavidin bu illərdə yazmamasının iki obyektiv səbəbi olduğunu qeyd edir: "Əvvəla Azərbaycan istiqlalını elan edərkən Cavid Azərbaycan hüdudları xaricində, yəni Tiflisdə idi. İkincisi də, bu dövrdə Cavidin bütün həyatı boyu müztərib olduğu göz ağrıları şiddətlənmiş, heç bir şey yazamaz və oxuyamaz olmuşdu. Yoxsa Cavid kimi millətçi, vətənpərvər və enerjik bir şair belə məsud bir dövrdə susmazdı, daha doğrusu susamazdı" (12, 19).

Təəssüflər ki, 50-60-cı illərdə də yazılan tədqiqat əsərlərinin əksəriyyətində "1918-ci ildən sonra uzun bir müddət Cavid yaradıcılığında ağır bir durğunluq, böhran yaranır. 1918-ci ildən sonra şair ölkədə və beynəlxalq həyatda baş verən böyük tarixi-ictimai hadisələrə son dərəcədə laqeyd görünür" kimi (16) fikirlər söyləməklə yanlışlığa yol verirdilər.

H.Cavid Cümhuriyyət dövründə tamamilə susaraq bir kənara çəkilmişdir demək də, düzgün olmazdı. Çünki H.Cavid döyüşkən, mübariz, hürriyyəti, azadlığı sevən, coşğun bir şair idi. O, bu illərdə ədəbi mühitdən tam uzaqlaşmamış ölkədə baş verən ədəbi-mədəni, ictimai hadisələrdə yaxından iştirak etmişdir. Bunu o zaman Bakıda çap olunan dövrü mətbuatda verilən məqalələr və informasiyalar, xatirələr, arxiv sənədləri də sübut edir.

O, ölkədə yeni yaranan "Yaşıl qələm" ədəbi cəmiyyətin yaranmasına yardımçı olmaqla yanaşı, o zaman fəaliyyətdə olan ədəbi kommisiyaların işində fəallıq göstərmiş, Azərbaycan müəllimlər iclasında idarə heyətinə üzv seçilmiş, iki ay sonra isə pedaqoji fəaliyyətindəki fəallığı nəzərə alınaraq Azərbaycan Müəllimlər Konfransında Təlifat heyətinə seçilir, Bakıda hazırlıq kurslarında ədəbiyyatdan dərs deyir, az bir müddət qız məktəbində şəriət müəllimi işləyir, Darülmüəllimin –Bakı Müəllimlər Seminariyasında dərs verir, A.Şaiqlə birlikdə 1919-cu ildə "Ədəbiyyat dərsləri" adlı dərslik yazaraq, hökumət mətbəəsində çap etdirmiş və s.

Bütün bunlar deməyə haqq verir ki, H.Cavid həm də xalqının yüksəlişi yolunda mübarizə aparmış maarifçidir. Oxumağı-yazmağı qızların ən gözəl ziynəti hesab edən publisist bu mövzuya həsr etdiyi həm publisist məqalələrində, dram əsərlərində, həm də "Elmi bəşər", "Qız məktəbində" kimi şeirlərində maarifçilik ideyalarını geniş təbliğ edirdi. Bütün həyatını maarif, elm, ədəbiyyat və teatra bağlayan müəllif əsərlərində mədəni yüksəlişi təmin etmək üçün məktəbin və maarifçiliyin böyük əhəmiyyətə malik olduğunu dönə-dönə əks etdirmişdir. "...sənətkarın təbliğinə xüsusi əhəmiyyət verdiyi və ardıcıl surətdə müdafiə etdiyi demokratik-humanist qənaətləri, həmçinin maarifə, mədəni tərəqqiyə və müasirləşməyə çağıran işıqlı arzuları içərisində elə qiymətli, orijinal və bədii təravətini itirməyən cəhətlər vardır ki, bunlar indiki həyatımız, tərbiyəvi təlimimiz və estetik inkişafımız üçün xeyli faydalıdır" (Məsud Əlioğlu."Şairin həqiqəti axtaran romantik gəncləri" (6).

Elə bu işlər bir daha sübut edir ki, Cavid Azərbaycan Xalq Cümhuriyyəti dövründə ən fəal ziyyalılardan biri kimi ölkədə baş verən bütün ictimai, mədəni

hadisələrdə, onların inkişafında yaxından iştirak etmişdir. Qaldı ki, "Ədəbiyyat dərsləri" əsərinə, bu kitab ədəbiyyat nəzəriyyəsi haqqında Azərbaycanda ana dilində yazılan ilk dərslik idi. Mənbələrdən belə bəlli olur ki, hətta H.Cavidin ən çox tənqidə məruz qaldığı 1920-30-cu illərdə belə bu kitab ən dəyərli dərs vəsaiti kimi məktəblərdə işlədilib.

Tədqiqat əsərlərindən və xatirələrdən belə bəlli olur ki, H.Cavid Mart faciəsi zamanı əsir düşmüş və xoşbəxtlikdən salamat qalaraq Bakını tərk edərək İrana, oradan da Naxçıvana getmişdir. Şairin Mart faciəsində başına gələnləri ən yaxın qələm dostu A.Şaiq "Xatirələrim" əsərində qələmə alıb. Müəllif H.Cavidin və S.Hüseynin bir möcüzə nəticəsində sağ qaldığını qələmə alaraq sonda qeyd edir ki: "...Hüseyn Sadiq ilə Cavid iki-üç gündən sonra Ənzəliyə getdilər. Cavid oradan Təbrizə, Təbrizdən isə Naxçıvana getmişdi" (2, 205).

Bu zaman Cavidin Naxçıvanda olması haqqında illər sonra ömür-gün yoldaşı Müşgünaz xanım xatirələrində yazırdı: "...1918-ci ilin avqust ayında evləndik. Cavid həmin vaxt Naxçıvanda dərs deyirdi. Bir neçə aydan sonra Maarif idarəsindən onu Bakıya dərs deməyə dəvət etdilər" (8, 49).

Ədibin 1918-ci ilin ortalarından 1919-cu ilin əvvəllərinə kimi, Naxçıvanda "Rüşdiyyə" məktəbində dərs deməsi haqqında Lətif Hüseynzadənin xatirələrindən: "Mən Naxçıvanda "Rüşdiyyə" məktəbində oxuyurdum. H.Cavid bu məktəbdə dərs deyirdi. O, zahirən çox sakit və mülayim təbiətli idi. Lakin həmişə dalğın və fikirli görünərdi. Çox danışmağı sevməzdi. Heç vaxt sinifdə hirslənməzdi (17).

Cümhuriyyət dövründə istər Naxçıvanda, Tiflisdə, istərsə də Bakıda olan ədib yalnız yazmaqla deyil, həm də ədəbi-ictimai tədbirlərdə, cəmiyyətlərdə çox yaxından iştirak etməklə, pedaqoji fəaliyyətlə məşğul olmaqla da Cümhuriyyətin ideyalarının təbliğatçısı idi. Heç də təsadüfü deyil ki, akademik Yaşar Qarayev onun adını "Cümhuriyyəti ürəkdən dəstəkləyən və alqışlayan" (1, 111) ədiblərlə birlikdə çəkirdi.

Yuxarıda qeyd etdiyimiz kimi elə Cümhuriyyətin dövründə Parlamentin qəzeti olan "Azərbaycan" (3) fəxrlə onu "Azərbaycanın bənam şairi" deyə oxucularına təqdim edirdi. H.Cavidin Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıya ilk gəlişini də oxucularına xəbər verən "Azərbaycan" qəzeti 9 matr 1919-cu il tarixli sayında "Hüseyn Cavid əfəndinin vürudu" adlı məqaləsində yazırdı: "...Bir sənəyə yaxın bir müddətdən bəri biz arzusunda olduğumuz məşhur şair Hüseyn Cavid əfəndi həzrətləri yenidən şəhərimizə vürud etmiş və dün idarəmizə təşrif gətirmişdi" (4). Deməli, ədib Bakıya gələrkən ilk üz tutduğu yer də məhz Parlamentin qəzeti olan "Azərbaycan"ın redaksiyası olub.

Qəzet sonra da ədibin faliyyəti haqqında müntəzəm olaraq oxucularına məlumat veribdir. Məsələn, qəzetin 5 aprel 1919-cu il tarixli sayından oxuyuruq: "Qurtuluş" məcmuəsi yenidən nəşrə başlamış və aprelin birində birinci sayısı çıxmışdı. Müqtədir şairlərimizdən Hüseyn Cavid, Səlman Mümtaz və qeyriləri kimi aləmi ədəbiyyat və mətbuatımızda mühüm mövqe tutan əfəndi-

lərin gözəl əsərləri məcmuə sütunlarını təzyin edir" (5).

Bütün bunlardan sonra qətiyyən irad tutmaq olmaz ki, H.Cavid Azərbaycan Xalq Cümhuriyyəti dövründə susmuşdur. Bildiyimiz kimi, bu dövrdə siyasi partiyalar arasında çox gərgin mübarizə gedirdi. Milli müxtariyyat uğrunda mübarizə aparan ziyalılar, milli ideoloqlar əks ideologiyanın nümayəndələrinin müqavimətləri ilə qarşılaşırdılar. Doğrudur Cavid heç bir siyasi hərəkata qoşulmasa da, heç bir siyasi partiyanın üzv olmasa da Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsini ürəkdən, şadyanalıqla alqışlayanlardan idi. "Hüriyyət! Ah, o məncə fəqət dadlı bir xəyal... Dünyada varmı hürr əcabə? İştə bir sual!..." söyləyən ədib bir il sonra xəyal etdiyi hüriyyəti daddı, yaşadı. Azərbaycan Xalq Cümhuriyyəti quruldu – belə bir qələbəni H.Cavid kimi azadlıq aşiqi necə alqışlamaya bilərdi?

İstər dramaturgiyasında, istərsə də publisistikasında millət, vətən, azad söz, azad cəmiyyət, türkçülük, turançılıq kimi mövzular üstünlük təşkil edən ədib hələ Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsindən əvvəl də bu ideya uğrunda mübarizə aparmışdır, sonra da. Hətta H.Cavid bolşeviklərin hakimiyyəti dövründə də həmin mövzulara sadiq qalaraq yaradıcılığında davam etdirdi.

Ümumiyyətlə, H.Cavid siyasətdən uzaq bir yaradıcı şəxs olub. "Siyasət rol oynayarkən ədəbiyyat susur, təbii susmalıdır da" (11, 277) – söyləyən ədib bütün türk dünyasının nicat yolunu yalnız maarifi, mədəniyyəti inkişaf etdirməkdə görürdü.

Bütün bu deyilənlər bir daha sübut edir ki, H.Cavid dövrün görkəmli bir qələm əhli və ziyalısı kimi Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizdə bərqərar olmasını hər vasitə ilə dəstəkləyib. Onun ideyalarının yayılması üçün əlindən gələni əsirgəməyib. Ölkə ərazisində maarifin, elmin təbliği üçün ilk dərslik hazırlayan müəllif çox yaxşı başa düşürdü ki, xalqın azad, xoşbəxt yaşaması ilk olaraq onun savadlanması ilə bağlıdır. Cahil insan kor kimidir, elmli insan isə daima inkişaf etmək üçün mübarizə aparır. H.Cavid isə bu mübarizəni inqilablar, qanlar-qadalar yolu ilə deyil, mədəniyyət, inkişaf vasitəsilə həyata kecirməyin tərəfdarı idi. Ona görə də, Sovetlər dövründə Şura inqilabını heç zaman dəstəkləmədi.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət). Bakı: Elm. 1998, 300 s.
2. Abdulla. Ş. Xatirələrim. Bakı: Uşaq, 1961, 223 s.
3. "Azərbaycan" qəz., 1918, 14 noyabr
4. "Azərbaycan" qəz., 1919, 9 mart
5. "Azərbaycan" qəz., 1919, 5 aprel
6. "Azərbaycan" qəzeti, 1963, 6 mart
7. Cəfərov C. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960, 262 s.
8. Cavidi xatırlarkən. Məqalə və xatirələr toplusu. Bakı: Yazıçı, 1982, 350 s.
9. Saraclı Ə. Azərbaycan yazıçıları cümhuriyyət dönəmində. Bakı: Elm, 2007, 420 s.
10. Hüseyn C. Dram əsərləri. Bakı: Elm, 2012, 496 s.
11. Hüseyn C. Əsərləri. 6 cilddə. Bakı: Elm, 1985, 300 s.
12. Türkəqulu M.H. Azərbaycan türk şairi Hüseyn Cavid. İstanbul: 1963, 153 s.

13. Məmmədova S. Hüseyn Cavid yaradıcılığında tarixilik və müasirlik. Avtoreferat. Bakı: BDU nəş., 2013, 24 s.
14. Müasir Azərbaycan ədəbiyyatı (dərslik) II cild. Bakı: BDU-nəşr, 2007, 562 s.
15. Vəliyev Ş. “Füyuzat” ədəbi məktəbi”. Bakı: Elm və Təhsil, 2004, 453 s.
16. “Kirovabad kommunisti” qəz., 1957, 26 oktyabr
17. “Şərq qapısı” qəz., 1963, 2 mart

## ДЕЯТЕЛЬНОСТЬ Г.ДЖАВИДА В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

**С.Г.ГАСАНОВА**

**РЕЗЮМЕ**

В 1918 году впервые в тюркско-мусульманском мире была основана Азербайджанская Демократическая Республика (АДР) с парламентской формой правления. Правда, Г.Джавид никогда не писал произведений, восхваляющих АДР, но это не мешало ему быть одним из активных пропагандистов ее идей. Как один из основателей литературного обьединения «Зеленое перо», он принимал активное участие в общественной, литературной жизни того времени. Г.Джавид являлся автором учебных пособий для средних школ, был членом различных литературных комиссий.

**Ключевые слова:** парламентская республика, литературное обьединение, пропагандист, литературная комиссия, учебное пособие

## H.JAVID’S ACTIVITY DURING THE PERIOD OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC

**S.G.HASANOVA**

**SUMMARY**

In the year of 1918 the first parliamentary republic in the Turkish-Muslim East, the Azerbaijan Democratic Republic was established. Though H.Javid did not write any plays de voted to Azerbaijan Democratic Republic, he was the most active fighter of the ideas of democratic republic those years. As the creater of “Yaşıl qalam” (Green pen) literary association he took an activc part in all social and literary events of his period. He was the author of some manuals for schools and was a member of literary commission as well.

**Key words**: parliamentary republic, literary assosiation, propoganda, literary commission, manual